# Azərbaycan Prezidenti İlham Əliyevin Serbiyaya işgüzar səfəri

## Niş şəhərinin "Konstantin Veliki" hava limanında qarşılanma




**Dekabrın 10-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Serbiya Respublikasının Prezidenti Aleksandar Vuçiçin dəvəti ilə Serbiyaya işgüzar səfərə gedib.**

AZƏRTAC xəbər verir ki, Niş şəhərinin "Konstantin Veliki" Hava Limanında dövlətimizin başçısının şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Prezident İlham Əliyevi Serbiya Baş nazirinin müavini, maliyyə naziri Sinişa Mali və digər rəsmi şəxslər qarşıladılar.